

# Müstəqil siyasətlə yüksələn nüfuz

## Bu, dövlət başçımızın "Sözümüz imzamızdır, biz nəyə söz veririksə, onu da edirik, bunu bütün dünya bilir" deyiminin real ifadəsidir

*"Bizim vədlərimiz, sözümüz imzamız qədər dəyərlidir". Bu fikirləri Prezident İlham Əliyev iyunun 4-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin açılış mərasimindəki çıxışında deyib. Dövlət başçısı vurğulayıb ki, son 30 il ərzində imzalanan bütün müqavilələr həyata keçirilib, onlar parlament səviyyəsində ratifikasiya edilib və qanun şəklində imzalanıb. Yəni həmin müqavilələrin bir sözü, bir ifadəsi belə dəyişdirilməyib. Bu səbəbdən "yaşıl enerji", bərpaolunan enerji baxımından da eyni marağı görürük.*

Beynəlxalq səviyyəli forumların keçirildiyi əsas şəhərlərdən birinə çevrilən Bakı bu il daha bir mötəbər tədbirə ev sahibliyi edib. Regionun enerji sahəsində mühüm hadisə olan növbəti Bakı Enerji Həftəsi keçirilib. Hər il təşkil olunan və özündə üç mühüm tədbiri birləşdirən Bakı Enerji Həftəsi dünyanın enerji sənayesi sahəsindəki liderləri bir araya gətirir və bununla da diqqəti Azərbaycanın üzərinə yönəldir. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirakı bu tədbirin yüksək statusunu təsdiqləyir. Enerji sektorunun bu əsas forumunun təməli "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulub. Qeyd edək ki, 1994-cü ildə fəaliyyətə başlayan Xəzər Neft və Qaz Sərgisi Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynayıb, həm də bu, böyük tədbirə çevrilib. İndi Bakı Enerji Həftəsi yüksək nüfuz qazanıb. Neft hasilatının qlobal miqyasda inkişafı iqtisadi və sosial siyasətə müsbət təsir göstərib. Dünyanın böyük dövlətlərinin ölkəmizə diqqəti ildən-ilə daha da artıb. Bakı Enerji Həftəsi Azərbaycanın neft-qaz sahəsindəki qlobal uğurlarını "yaşıl enerji" sektorunda davam etdirmək əzminin nümayişi üçün uyğun beynəlxalq platformadır. Tədbir Azərbaycanın "yaşıl enerji" və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq niyyətini bir daha gündəmə gətirib. Dünya İqtisadi Forumunun Enerji Keçid İndeksi Hesabatında Azərbaycanın 2022-2023-cü illərdə dünya üzrə ən yaxşı inkişaf edən ölkələr sırasında olduğu bir daha vurğulanıb.

İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində, ölkəmizin tranzit potensialının gücləndirilməsi istiqamətində qlobal əhəmiyyətli layihələrin icrası imkanları artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığı da inkişaf etdirir. Avropanın enerji arxitekturasının qurulmasında və enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bütün iqtisadi-siyasi manelərə və böhranlara baxmayaraq, yeni layihələrin icrasını uğurla davam etdirir. Bu layihələr ölkələr, xalqlar arasında körpü rolunu oynayır, onları daim bir araya gətirir. Əməkdaşlığın coğrafiyasının ildən-ilə daha da genişlənməsi Azərbaycanın etibarlı tərəfdaş kimi möhkəmlənən mövqeyinin göstəricisidir. Dünyada yeni innovasiyaların tətbiqi energetika təsərrüfatında enerjiyə olan tələbatı da artırır. Avropanın bu məsələdə də ümid yerlərindən biri əvvəlki kimi Azərbaycandır. Bunu ayrı-ayrı Avropa dövlətləri açıq şəkildə ifadə edirlər. Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırır. Bu prizmadan Avropa İttifaqının ölkəmizlə əlaqələrini genişləndirməsində maraqlı olması Prezident İlham Əliyevin dediyi kimi, "bizim sözümüz, imzamızdır" deyiminin onlar tərəfindən də qəbulu deməkdir. Avropa İttifaqı ilə qurulan əlaqələr qurumun ölkələrinin dövlətimizə olan güvəninin və ölkəmizin dünyada enerji təhlükəsizliyinin təminatı sahəsində rolunu göstərir.








Zəngin təbii sərvətlərə, davamlı iqtisadiyyata və müasir texnologiyalara malik olan müstəqil Azərbaycan dövləti dünyanın enerji təhlükəsizliyi məsələlərinin həllində aparıcı mövqe tutaraq enerji tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Prezident İlham Əliyev ötən il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarındakı çıxışında deyib ki, təbii qaz ehtiyatlarımız özümüz və tərəfdaşlarımız üçün ən azı yüz il kifayət edəcək. Ölkəmizin iştirakı ilə Avropaya istiqamətlənən enerji körpüləri Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun göstəricisidir. Yeni dostların, tərəfdaşların qazanılması əsasında gündəmə gətirilən layihələr dünyanın enerji xəritəsini yenidən tərtib edir. Azərbaycan yalnız Avropanı 2027-ci ilə qədər ildə 20 milyard kubmetr qazla təchiz etmək öhdəliyini yerinə yetirmək üçün əlindən gələni edir. Bu, ölkəmizin strateji hədəfidir.

Azərbaycan Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən kəmərin çəkilişi təşəbbüsü ilə çıxış edib və qonşu ölkələrlə birlikdə onu istismara verib. Bu, Azərbaycanın enerji sektorunda mühüm addımlar atdığını və beynəlxalq əməkdaşlığa töhfə verdiyini göstərir. Azərbaycanın strateji tərəfdaşlığı, qaz ixracının artması və yeni tərəfdaşlarla əməkdaşlıq perspektivləri ölkənin enerji sektorunda daha da möhkəmlənməsinə və beynəlxalq nüfuzunun artmasına şərait yaradır. Bununla yanaşı, ölkəmizdə mövcud olan sabitlik və qətiyyətli siyasət enerji əməkdaşlığının genişlənməsinə təkan verir. Hazırda mövcud geosiyasi vəziyyətdə enerji təhlükəsizliyi ilə bağlı müzakirə edilən məsələlər olduqca aktualdır və bu gün enerji təhlükəsizliyi məsələsi artıq hər bir ölkə üçün milli məsələ səviyyəsinə yüksəlib. Enerji sahəsində zəngin potensiala sahib olan ölkəmiz bu istiqamətdə də reallaşdırdığı layihələrlə enerji təhlükəsizliyinin təmin olunmasında öz fəaliyyətini durmadan genişləndirir. Azərbaycan xalqının Lideri üçün "Sözümüz imzamızdır, biz nəyə söz veririksə, onu da edirik, bunu bütün dünya bilir" prinsipi ölkə rəhbərinin siyasi xəttinin əsas devizi kimi qəbul edilir.

Ölkəmizin inkişafı, bütün istiqamətlər üzrə əldə edilmiş nailiyyətlər göstərir ki, Azərbaycan haqq yolundadır. Dövlət başçımızın bildirdiyi kimi, bizə olan təzyiqlərin səbəblərinin biri də məhz budur ki, müstəqil siyasət aparırıq, öz yolumuzla gedirik. Prezident İlham Əliyev ölkə rəhbərliyinə başladığı ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. Dediyi sözə, verdiyi vədə sadiq qalaraq ölkəmizi dünyanın ən qüdrətli dövlətlərindən birinə çevirdi. Dövlətçilik tarixində ölkəmizin qarşısında duran hədəflərin reallaşdırılması, davamlı inkişafın təmin edilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, digər tarixi nailiyyətlərin əldə olunması kontekstində ən parlaq dövrdür. Ölkənin inkişaf istiqamətlərini və tutduğu yolu, dövlətin yürütdüyü siyasəti düzgün müəyyənləşdirən Prezident İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı getdikcə artır. Cənubi Qafqazın lideri statusunu daşıyan Azərbaycan artıq mövcud olduğu regionda hadisələrin inkişaf istiqamətini müəyyən edən aparıcı rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə Azərbaycan xalqının və dövlətinin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları əks etdirir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa böyük töhfələr verir.

Sivilizasiyalararası dialoqun, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu məkana çevrilən ölkəmizin beynəlxalq nüfuzunun artması, regionda baş verən geosiyasi proseslərdə əsas aktor olması, həmçinin konstitusion olaraq müəyyən edilmiş ərazi bütövlüyü və suverenliyini bərpa etməsi dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir, bu il Azərbaycan Cənubi Qafqazın təhlükəsizliyi ilə yanaşı, regionun bütün ətraf mühitinin qorunması istiqamətində əlavə öhdəliklərə imza ataraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcək. Prezident İlham Əliyev "Euronews"a müsahibəsində bildirib ki, ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. "Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər".

**Mustafa KAMAL,**
**"Respublika".**